Ən çox oxunan qəzet

№ 28 (4723), 2018-ci il

Qiyməti 30 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

Qəzet 1996-cı il noyabrın 1-dən çıxır

13 fevral (çərşənbə axşamı)

www.sherg.az

## BQXK Dilqəm Əsgərov və Şahbaz Quliyevə baş çəkib



**Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri (BQXK) Dağlıq Qarabağ münaqişəsi nəticəsində saxlanılan şəxslərə növbəti dəfə baş çəkiblər.**

Bu barədə Trend-ə BQXK-nın Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova məlumat verib.

(Səh.4)

## Sürüşmə zonası nəzarətdədir

Binalar təhlükəli sahədən 5 kilometr aralıda yerləşir



"Bayılda tikilən yeni çoxmənzilli yaşayış binaları təhlükəli sahədən 5 kilometr aralıda yerləşir və bütün layihə işləri tikinti norma və qaydalarına uyğun olaraq aparılır".

(Səh.7)



## Mehriban Əliyeva Vatikan nümayəndə heyəti ilə görüşüb

**Azərbaycanın I vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Pol Riçard Gallagerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

M. Əliyeva bu səfərin ölkəmizlə Müqəddəs Taxt-Tac arasında münasibətlərin inkişafına təkan verəcəyinə əminliyini ifadə edib.

(Səh.2)

## Azərbaycan seçkiləri müşahidə etmək üçün ATƏT DTİHB-yə dəvət göndərib



**Azərbaycan ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosuna prezident seçkilərini müşahidə etməklə bağlı dəvət göndərib.**

Bu barədə APA-ya ATƏT DTİHB-nun mətbuat ofisindən məlumat verilib.

Bildirilir ki, hazırda ehtiyacların qiymətləndirilməsi missiyasının formalaşdırılması ilə bağlı işlər aparılır: "Planlaşdırma davam etdiyi üçün hələlik onların səfəri və tərkibi barədə məlumat yoxdur".

(Səh.2)

# Trampın gəlini xəstəxanalıq oldu



## Ağ tozlu zərf şübhə yaradıb

**Kiçik Donald Trampın həyat yoldaşı Vanessa naməlum ağ tozlu zərfi açdıqdan sonra xəstəxanaya yerləşdirilib.**

Bu barədə ABC telekanalı Nyu-York polisinə istinadən xəbər verib. Məlumata əsasən, zərf kiçik Donald Trampın yaşadığı ünvana gətirilib. Məlumata əsasən, qadına müvafiq tibbi yardım göstərilib.

(Səh.3)



## Mixeil Saakaşvili Polşadadır

**Gürcüstanın eks-prezidenti, Odessa vilayətinin sabiq qubernatoru Mixeil Saakaşvili Ukraynanı tərk edib. M.Saakaşvili yerli vaxtla 16.00-da Kiyevdən Polşaya uçub.**

Məlumata görə, M.Saakaşvili deportasiya yox, readmissiya edildiyi bildirilir.

Qeyd edək ki, readmissiya hər hansı bir dövlətin ərazisində qanunsuz olan əcnəbinin öz mənşə ölkəsinə və ya tranzit ölkə kimi istifadə etdiyi ölkəyə qaytarılmasıdır.

(Səh.4)

Günün içindən ● Günün içindən | Günün içindən ● Günün içindən



# "Biz nə valyuta alırıq, nə də valyuta satırıq"

## Elman Rüstəmov: "Manatın ABŞ dollarına qarşı məzənnəsi 4 faiz möhkəmlənib"

(Səh.7)